393/K/1/2012

# M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ilə Macarıstan Respublikasının Milli Kitabxanası arasında əməkdaşlıq haqqında Memorandum

**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ilə Macarıstan Respublikasının Milli Kitabxanası** (sonradan "Tərəflər" adlandırılacaq):

Kitabxanalar arasında əməkdaşlığı inkişaf etdirmək, elm, mədəniyyət və mübadilə eləcə də informasiya resurslarının mübadiləsini təmin etmək niyyətində olduğunu bildirərək,

Aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, sənədlərin elektron mübadiləsi və çatdırılması, biblioqrafiya, nadir kitabların bərpa və konservasiyası, kadr hazırlığı sahələrində əməkdaşlıq edəcəklər.

## Maddə 2

Tərəflər kitabxana elminin, kitabxana-informasiya sahəsinin inkişaf perspektivləri, nailiyyətləri barədə qarşılıqlı təcrübə və bilik əldə etmək məqsədilə aşağıdakı sahələr üzrə əlaqələri inkişaf etdirəcəklər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə;
- məlumat bazalarının idarə edilməsi;
- kitab və kitab nəşri sahəsində elmi tədqiqatlar;
- nadir kitabların mühafizə, bərpa və konservasiyası texnologiyaları;
- kitabxana arxivlərinin keyfiyyətli təkmilləşdirilməsi məqsədilə beynəlxalq kitab mübadiləsinin inkişafı;
- kitab sərgilərinin təşkili;
- kitabxana elminin bütün sahələrində mütəxəssislərin təcrübə mübadiləsi aparılması, treninglərin, vörkşopların, seminarlar və elmi konfransların keçirilməsi.

## Maddə 3

Kitabxana mütəxəssislərinin ezamiyyəsi üçün işçilərin sayı və ezamiyyənin müddətindən asılı olaraq ezamiyyə xərcləri göndərən Tərəfindən ödəniləcəkdir. Səyahət, gündəlik və yaşayış xərclərini də hər bir gün üçün qəbul edən tərəf yox, göndərən tərəf ödəyəcəkdir.

## Maddə 4

Əməkdaşlıq haqqında Memorandum 5 il müddətinə etibarlı olacaq və bu Memorandumun bitməsinə 6 ay qalmış digər Tərəfin Memorandumun bitməsi barədə yazılı məlumatı olmazsa, Əməkdaşlıq haqqında Memorandum növbəti 5 il müddətinə uzadılacaqdır.

## Maddə 5

Əməkdaşlıq haqqında Memoranduma əlavə və dəyişikliklərin edilməsi zərurəti yarandığı halda Tərəflər- - bir-birini qabaqcadan məlumatlandırmalıdır və həmin əlavə və dəyişikliklər digər tərəfin razılığı - - əldə edildikdən sonra həll olunur.

## Maddə 6

Əməkdaşlıq haqqında Memorandum ________________ şəhərində «_____»__________2012-ci il tarixdə Azərbaycan, macar və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər səlahiyyətlidir. Hazırki Memorandumun tərcüməsi ilə problem olarsa, ingilis variantına üstünlük veriləcək.

| | |
|---|---|
| **M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru** | **Macarıstan Milli Kitabxanasının direktoru** |
| **Dr. Kərim Tahirov** | **Dr. Andrea Sajó** |
| 18.06.12 | |